## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*

UOT 372.2.

***Şərafət Aram qızı Baxışova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

# PEDAQOJİ PROSES MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ÜMUMİ İNKİŞAFINI TƏMİN EDƏN MÜHİT KİMİ

***Шарафат Арам гызы Бахышева***
*доктор философии по педагогике,*
*доцент Азербайджанского Государственного Педагогического Университета*

# ПЕДАГОГИЧЕСКИЙПРОЦЕССКАК СРЕДА, ОБЕСПЕЧИВАЮЩАЯ ОБЩЕЕ РАЗВИТИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Sharafat Aram Bakhishova***
*doctor of philosophy in pedagogy*
*associate professor of the Azerbaijan State Pedagogical University*

# THE PEDAGOGİCAL PROCESS AS AN ENVİRONMENT THAT ENSURES THE OVERALL DEVELOPMENT OF CHİLDREN OF PRESCHOOL AGE

**Xülasə:** Məqalədə uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmənin əsas şərtlərdən biri olduğu və bunun da əsas mahiyyətini düzgün, səviyyəli aparılan pedaqoji prosesin təşkil etdiyi göstərilir. Pedaqoji prosesin təşkilində isə yeni təlim metod və texnologiyalarından istifadənin daha yüksək nəticələrin əldə olunmasına, uşaqlarda müstəqillik, təfəkkür fəallığı, işgüzarlıq, məsuliyyət, dövlətçilik və vətəndaşlıq mövqeyinə malik olan, həyati bacarıqlara yiyələnmiş şəxsiyyət formalaşdırmağın mümkünlüyündən söhbət açılır.

***Açar sözlər:*** *Məktəbəqədər yaşlı uşaqlar, məktəbəqədər dövr, pedaqoji proses, əqli və intellektual inkişaf, şəxsiyyət, inkişafetdirici təlim, prinsiplər, keyfiyyətin yüksəldilməsi, vasitələr.*

**Резюме:** Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению. Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыс-лительной деятельности, качеств ума, творческой инициативы, которые возможны в развивающем обучении детей дошкольного возраста.

***Ключевые слова:*** *дети дошкольного возраста, дошкольный период, педагогический процесс, познавательное и интеллектуальное развитие личность, развивающееобучение, принципы, повышение качества, средства.*

**Summary:** Social and economic changes of public life of our country have brought respective alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with formation of steady informative interests, skills of cogitative activity, qualities of mind, the creative initiative acts.

***Keywords****: Children of preschool age, preschool period, pedagogical process, development of reason and intelligence, the personal focused activity, the developing training, means, principles, improvement of quality.*

Təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiya, yeni təlim metod və texnologiyalarının tətbiqi məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin düzgün təşkili, yeni pedaqoji təfəkkürün formalaşmasına təkan verir.

Uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən biridir. Bunun əsas mahiyyətini düzgün, səviyyəli aparılan pedaqoji proses təşkil edir. Apardığımız müşahidələr belə qənaətə gəlməyə əsas vermişdir ki, məktəbəqədər təhsilin qarşısında qoyulan vəzifələr o zaman müvəffəqiyyətlə yerinə yetirilə bilir ki, pedaqoji proses yüksək səviyyədə təşkil olunsun.

Ş.A. Amonaşvili yazır ki, əgər pedaqoji proses özünün bütün komponentləri ilə altıyaşlı uşaqların xüsusiyyətlərinə və imkanlarına tam uyğun gəlməsə, onlar dərhal oxumaq həvəsini itirirlər.

Uşaq bağçalarında pedaqoji prosesin yüksək səviyyədə təşkili onun elmi-pedaqoji cəhətdən əsaslandırılmış planlı, sistemli, məqsədyönlü idarəetmədən, rəhbərlik və nəzarətdən çox asılıdır. İdarə edən və idarə olunanın pedaqoji prosesdə fəal və məqsədyönlü iştirakı bu prosesin səmərəli alınmasına gətirib çıxarır. Əgər belə olarsa, onda pedaqoji prosesin təşkilinin səmərəliliyindən danışmağa dəyər.

Məktəbəqədər təhsil sistemində idarəetmənin müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla ölkədə təşəkkül tapmış yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsinə, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin mütəmadi yeniləşməsinə ehtiyac var. Bu yeniləşmə pedaqoji prosesin tamlığını təmin edən elmi yolların innovasiya axtarışları ilə və sistem kimi baxılan pedaqoji fəaliyyətlə bağlıdır. Müasir mərhələdə məktəbəqədər müəssisələrdə pedaqoji prosesin bütövlükdə elmi əsaslar üzərində qurulması, onun bütün çətinliyinin dərk edilməsi, uşaq şəxsiyyətinin formalaşması kimi məsələyə diqqətin yönəldilməsi ən vacib vəzifələrdəndir. Məhz buna görə də məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarəolunması effektivliyinin artması məktəbəqədər təhsil sisteminin yenidən qurulmasında əsas məsələ kimi meydana çıxır.

Təcrübə göstərir ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkilinin keyfiyyəti idarəetmə fəaliyyətindən asılıdır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasında bir çox uyğunsuzluqların həll olunması ılə əlaqədar bir sıra çətinliklər mövcuddur:

- pedaqoji prosesin idarə olunması əsaslarının nəzəri-metodiki işləmələrinin kifayət qədər olmaması və məktəbəqədər pedaqoji təcrübənin onun idarəetmə mexanizmində əsaslandırılmasının tələbatı;
- idarəetmə əməyində şablon hərəkətlərin, stereotipləşmiş fəaliyyətin mövcudluğu və məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesə yaradıcı yanaşma axtarışlarının vacibliyi;
- pedaqoji prosesin məzmununun yeniləşməsinin vacibliyi və idarəetmə fəaliyyətinin qeyri-mütəşəkkil xarakteri;
- rəhbərliyin idarəetmədə komponentliyinin çatışmazlığı.

Bu gün məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin yenidən formalaşdırılmasına iqtisadi, sosial-mədəni, normativ-hüquqi şərtlər kompleksi imkan yaradır. Bununla əlaqədar olaraq təhsil müəssisələrinin idarəetmə sistemi çərçivəsində cəmiyyətdə baş verənləri özündə əks etdirən yeni sistem vacibdir.

Müasir dövrdə pedaqoji prosesin idarə olunmasının məqsədi uşağa öz imkan və bacarıqları baxımından məktəbəqədər təhsil müəssisələri tədris müstəvisində öz yerini tapmağa kömək etmək üçün şərait yaratmaqdır.

İnnovasiya tipli məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunması probleminin həlli bütöv bir sistemin elementlərinin inteqrasiyasını təmin edən mexanizmin işlənib hazırlanmasını tələb edir.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin yeniləşməsi aspektində innovasiya fəaliyyəti bu gün peşəkar mədəniyyətin formalaşmasında əsas faktor kimi nəzərə alınır, yaradıcı pedaqoji kollektivin birləşməsi və onun optimal özünüinkişaf bazası kimi baxılır. İnnovasiya yeni elmi nailiyyətlərin, ideya və konsepsiyaların təcrübəyə daxil edilməsinə imkan verdiyini göstərir.

Pedaqoji prosesin səmərəli təşkili üçün aşağıdakı amillər böyük rol oynayır:

1. Pedaqoji prosesin, bilik alanın arzu və istəklərinə, yaş və fərdi xüsusiyyətlərinə, cəmiy-

yətin tələblərinə və elmin inkişaf səviyyəsinə əsasən təşkil edilməsi.

2. Bilik verən, bacarıq və vərdişlər aşılayan şəxsin müəyyən ixtisas sahəsi üzrə zəngin biliyə, bu biliyi mənimsətmə qabiliyyətinə və tərbiyəvi keyfiyyətləri aşılama bacarığına-pedaqoji prosesin təşkili metodikasına mükəmməl yiyələnməsi.

3. Pedaqoji prosesi təşkil etmək üçün xüsusi proqramın olması.

4. Pedaqoji prosesin bilik verən, bacarıq və vərdişlər aşılayanla bilik alan, bacarıq və vərdişlərə yiyələnənlər arasında proqrama və təlim vasitələrinə əsasən müəyyən məkanda (uşaq bağçasında) müəyyən rejimə əsasən baş verməsi.

Pedaqoji prosesin təşkilində yuxarıda sadaladığımız amillərin bir vəhdət halında fəaliyyət göstərməsi zəruridir. Bu amillər əgər dəqiq müəyyənləşdirilsə və onlar arasında əlaqə nə qədər yaxşı təşkil və tənzim edilsə, təlim və tərbiyə prosesləri bir o qədər də səmərəli nəticələr verər.

Pedaqoji prosesin əhəmiyyəti onun məzmunu ilə əlaqədardır.

Pedaqoji prosesin təşkilində aşağıdakı prinsiplərin əsas götürülməsi zəruri hesab edilir:

- pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir;
- təlimdə bərabər imkanların yaradılması-bütün uşaqlara eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;
- uşaqyönlülük-uşaq pedaqoji prosesin mərkəzində dayanır. Bütün təlim-tərbiyə işi uşaqların maraq və tələbatlarının ödənilməsinə, onların potensial imkanlarının inkişafına yönəldilir;
- inkişafyönlülük- uşağın idrak fəallığı izlənilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- fəaliyyətin stimullaşdırılması-pedaqoji prosesin səmərəli və effektiv qurulması, uşaqların təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə uşaqların daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur.
- dəstəkləyici mühitin yaradılması-pedaqoji prosesin münasib maddi-texniki baza və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji proses elə bir geniş sahəni əhatə edir ki, bu mərhələyə hərtərəfli elmi əsaslara söykənən idarəetmə sisteminin tətbiqi zəruridir.

Məlumdur ki, pedaqoji prosesin düzgün təşkili tərbiyəçinin rəhbərliyi altında uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, onların məktəbə hazırlanmasıdır. Burada iki cəhət özünü göstərir. Müasir dünya həyatın bütün sahələrində, o cümlədən, təhsildə də baş verən dəyişikliklərlə doludur. Bu, insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə tez bir zamanda özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri üzə çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisələri sosial dəyişikliklərdən asılı olmadan sosial inkişafa uyğun analitik müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə doğru istiqamətlənməlidir. Bu cür şəxsiyyəti yalnız yaradıcı pedaqoq tərbiyə edə bilər. Tədris müəssisələrinin təcrübəsini yenilikçi-pedaqoq daha da aktiv təmin edir. Cəmiyyət kütləvi innovasiya hərəkatını yaradıcılığın yüksək səviyyəsi kimi dəstəkləməyə daha da çox meyl edir.

Araşdırmalar nəticəsində aydın olmuşdur ki, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesinin yeniləşməsinin xüsusiyyətləri tərbiyəçinin yaradıcı potensialı və iş stajından asılı olması meydana çıxıb. Müəyyən edilib ki, ayrılıqda tərbiyəçinin potensialı bütövlükdə tədris müəssisəsinin innovasiya potensialından asılı olaraq artır və ya azalır, bütün yeniliklər əgər yaxşı düşünülmüş və formalaşdırılmış məqsəd daşıyırsa effektli olur.

Yeniləşmə prosesi və onun sistem analizinin sıx əlaqəsi onların mahiyyətinə və vahid istifadəsinin mümkünlüyünə nəzəri və təcrübi yanaşmaları müəyyən edir. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkilinin, elmi və maddi bazalarının zəifliyi yenilikçi-pedaqoqların vəziyyətlərini daha çətinləşdirir. Belə ki, yeniləşmə həm bütöv pedaqoji prosesə, həm də sistem kimi baxılan pedaqoji fəaliyyətə aid olmalıdır. Onların diaqnostikası və qiymətləndirilməsi bir hissəsi sistem analizi olan məhz

sistem yanaşması çərçivəsində aparılmalıdır. Tərbiyəçinin fəaliyyət obyekti uşaq, uşaq kollektivi, ailə, pedaqoji kollektiv və onlarla əlaqəli şəxsi tərbiyə-təhsil aktıdır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili zamanı təlim-tərbiyə işi elə qurulur ki, təlim daha çox uşaqların fəallığına əsaslandırılır. Tərbiyəçilər isə həmin fəallıqdan istifadə etməyi bacarmalıdırlar. K. D. Uşinski öz əsərlərində bu məsələyə toxunaraq yazır: «Təlimdə hər şey maraqlı ola bilməz. Maraqsız şeylər var və olmalıdır. Uşağa təkcə maraqlı olan şeyləri deyil, maraqsız olan şeyləri də öyrətmək lazımdır. Siz uşağı həyata hazırlayırsınız, həyatda isə hər vəzifə maraqlı deyil».

Ümumiyyətlə, pedaqoji proses elə qurulmalıdır ki, uşaq tərbiyəvi təsirin obyekti deyil, subyekti olsun, hərtərəfli fəaliyyət prosesində şəxsiyyət kimi formalaşa bilsin.

Sosial-iqtisadi dəyişikliklər, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili birinci növbədə inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Son illərdə təhsil sistemində aparılan islahatlar, təhsilin məzmununun təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tətbiqini zərurətə çevirir. Bu baxımdan interaktiv təlim metodlarından istifadə təhsilin keyfiyyətinə özünün müsbət təsirini göstərir. Təlimin keyfiyyətinin yüksəldilməsi məqsədilə təlim-tərbiyə prosesində uşaqlara daha çox müstəqillik verir, öz fikirlərini sərbəst, çəkinmədən söyləməyə arzu və istəklərinə müvafiq məşğuliyyət seçməyə şərait yaradır.

Pedaqoji proses öz məqsədi, vəzifələri, məzmunu, metodları, tərbiyəçi - uşaq münasibətlərinin qarşılıqlı təsir formaları sayəsində əldə olunmuş nəticələri ilə xarakterizə olunur. Pedaqoji prosesdə pedaqoji əməyin məhsulu yaradılır.

Bütün deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olur ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili müasir tələblər baxımından müəyyənləşdirilərsə işin səmərəliliyinə nail olmaq mümkündür.

**Problemin aktuallığı.** Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili müasir tələblər baxımından müəyyənləşdirilərsə, işin səmərəliliyinə nail olmaq mümkündür. Pedaqoji prosesin təşkilinə verilən didaktik, pedaqoji, psixoloji tələblər nəzərə alınarsa, pedaqoji prosesə yeni yanaşmalar tətbiq edilərsə bu təlim-tərbiyə prosesində daha yüksək nailiyyətlər əldə olunur.

**Problemin elmi yeniliyi**. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin düzgün təşkili uşaqların məktəbə hazırlıq səviyyəsini yüksəldir. Pedaqoji prosesdə inkişafetdirici təlim öz məqsədi, vəzifələri, məzmunu, metodları, tərbiyəçi-uşaq münasibətlərinin qarşılıqlı təsir formaları sayəsində əldə olunmuş nəticələri ilə xarakterizə olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

## Ədəbiyyat:


1. Abbasov A. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar. // Azərbaycan məktəbi. 2013, № 6
3. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Амонашвили Ш.А. В школу с шести лет. М.: Педагогика 1986.
5. Uşinski. K.D. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1953.



**E-mail**: sharafat_baxishova1960@mail.ru


**Rəyçilər:** *ped. ü. fəls.dok.. dos.* **M.**A **.İbadova**
*ped. ü. fəls.dok.. dos.* **X.A. Talıbova**
**Redaksiyaya daxil olub:** 15.10.2018